BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2014*

UOT 202.911

# XVII ƏSRİN 20-40-CI İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN MƏRKƏZİ ASİYA DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR

**A.Ə.QƏRİBOVA**
***Bakı Dövlət Universiteti***
***aysel.qərib@ mail. ru***

*Mənbələrin təhlili göstərir ki, I Şah Səfinin hakimiyyəti dövründə Səfəvilərin Xorasana hərbi yürüşləri bir qayda olaraq Buxara xanları tərəfindən dəf olunurdu. Eyni zamanda Mərkəzi Asiya dövlətləri olan Xarəzm, Buxara və Xivə xanlıqları Səfəvi dövlətinin hərbi-siyasi nüfuzundan öz daxili siyasi problemlərini həll etmək üçün istifadə etməyə çalışırdılar. Buna baxmayaraq, XVII əsrin 20-40-cı illərində Səfəvi dövləti ilə Mərkəzi Asiya xanlıqları arasındakı sərhədlərdə hər hansı bir ciddi dəyişikliklər baş verməmişdir.*

**Açar sözlər:** I Şah Abbas, I Şah Səfi, Əbdüləziz, Əbülqazi, xan, Sultan

I Şah Abbas vəfat etdikdən (1629) dərhal sonra Səfəvi dövlətinin bəzi bölgələrində yenidən separatizm baş qaldırmışdı. Yeni Səfəvi hökmdarı I Şah Səfi (1629-1642) baş vermiş separatist hərəkatların qarşısını almadan ölkəni içəridən möhkəmləndirə, sərhədlərin mühafizəsini təmin edə bilməzdi. Doğrudur, o, az vaxtda ölkənin bəzi bölgələrindəki mərkəzdənqaçma hərəkatlarının qarşısını alır və daxili sabitliyi bərpa edərək Xorasan məsələsinin həlli üçün geniş imkanlar qazanır. Ancaq bu zaman özbək basqınçılarının Xorasana qarət məqsədilə yürüşləri daha da artır. XVII əsrin qaynaqlarından "Zeyl-i tarix-i alamara-ye Abbasi" (1) və "Xülasət üs-siyər"in (2) məlumatları sərhəd məntəqələrində Səfəvilərin özbəklərlə münasibətlərinin pisləşdiyi və onların aralarında yeni silahlı toqquşmaların baş verdiyini təsdiq edir. Hələ I Şah Səfiyə qədər də onların arasında Xorasana sahib olmaq üstündə mübarizə getmiş və I Şah Abbasın hakimiyyətinin ilk illərində, demək olar ki, bütün Xorasan özbəklərin hakimiyyəti altına düşmüşdü. Lakin 1599-cu ildə I Şah Abbas itirilmiş Məşhəd, Nişapur, Səbzəvar şəhərlərini geri qaytarmağı bacarmışdı, Xorasanda Səfəvilərin mövqeyi son dərəcə möhkəmlənmişdi.

I Şah Səfi hakimiyyətə keçdikdən az sonra 1629-cu ildə Urgənc hakimi İsfəndiyar xan (1623-1642) Mərvə hücum edir. Məhəmməd Məsum onun Mərvə hücumuna I Şah Abbasın ona etmiş olduğu yaxşılıqlara cavab olaraq

naşükürlüyə yol verməsi kimi baxır. O, yazır ki, Urgənc hakimi İsfəndiyar xan və onun yaxınlarına Səfəvi sarayında nəvaziş göstərilmiş, dəfələrlə müzəffər Səfəvi ordusunun köməyi ilə ölümcül döyüşlərdə xilas edilmişdi (2, v. 21 a). Məhəmməd Məsumun bu məlumatını "Zeyl-i tarix-i alamara-ye Abbasi" də təsdiq edir. Mənbədə göstərilir ki, Xarəzm hakimi Ərəb Məhəmməd xanın (1602-1623) övladları arasında hakimiyyət üstündə müharibədə məğlub olmuş böyük oğlu İsfəndiyar I Şah Abbasa pənah gətirmiş və uzun müddət onun himayəsində yaşamışdır (1, 19).

Məhəmməd Məsuma görə Mərv hakimi Aşur xanın başçılığı altında qala mühafizəçiləri çox ciddi səy göstərib qalanı canfəşanlıqla qoruyaraq bu qorxulu düşməni dəf etməyə tam hazır olduqlarını nümayiş etdirdilər. O, öz hərbi dəstəsinin sayının az olmasına baxmayaraq qorxmadan qaladan çıxıb düşmənin çoxsaylı ordusu ilə döyüşə başlayır. İlk toqquşmadan sonra İsfəndiyar xan geri çəkilməyə məcbur olub öz ölkəsinə qayıdır (2, v. 21 a-b). Məhəmməd Məsuma görə Aşur xan özünün hərbi dəstəsi ilə İsfəndiyar xanı məğlub etmişdi. Doğrudur, ilk döyüşdə Mərv ordusu qələbəyə nail olmuşdu. Ancaq "Zeyl-i tarix-i alamara-ye Abbasi"də göstərilir ki, Rəhmanqulu Qaradaşın başçılığı altında 6-7 min nəfərdən ibarət türkmənin Qaradaş, Cəlayir, Salur ellərində səfərbər edilmiş ordu da İsfəndiyar xanla birləşmişdi. Belə olan halda Aşur xanın ilk qələbədən sonra döyüşü davam etdirməsi o qədər də asan deyildi. İsfəndiyar xan İsfahandan göndərilən ordu yaxınlaşdıqda Mərv ətrafını tərk etməyə məcbur olmuşdu (1, 21).

I Şah Səfinin hakimiyyətə keçməsi Xorasan türkmənlərinin bir qisminin narazılığına səbəb olmuşdu. Onlar Şah hakimiyyətinin zəifləməsindən sui-istifadə edib özbək xanlarının hakimiyyəti altına keçməyə cəhd edirdilər. Bu zaman Əbülqazi xan Nisə, Abiverd və Dərun başçılarının səhlənkarlığından istifadə edərək göstərilən mahalları ələ keçirmişdi. Hələ Əbülqazi xanın qiyamına qədər Nisə hakimi Bektaş xan Ustaclı saray qulamlarından olan Dərun hakimi Uğurlu sultan düşmən qarşısında qorxudan öz qalalarını buraxıb Quşmeyxana qaçmışdılar. Yaranmış əlverişli şərait Əbülqazi xanın gələcək hərbi planlarına da təsir göstərdi. Vaxt itirmədən Nisə və Dəruna yaxınlaşıb onları döyüşsüz ələ keçirdi. Əbülqazi xanın başqa yerləri də tutmaq üçün real təhlükə yaratması Məşhəd hakimi Mənuçöhr xanı ona qarşı təcili tədbir görməyə vadar edir. Nişapur hakimi Bayraməli sultan Bayat, Səbzəvar hakimi Əhməd sultan Çəkni Mənuçöhr xanla birləşib Abiverdə yaxınlaşdılar. Əbülqazi Qızılbaş qoşununun yaxınlaşması xəbərini eşidib bölgəni qarət edərək xeyli mal-qara da ələ keçirib Nisəyə doğru geri çəkilir. Qızılbaşlar qiyamçıları adı çəkilən şəhərlərdən vurub çıxardı. Döyüşdə düşmən tərəfdən 3-4 min əsgər öldürüldü və əsir götürüldü (1, 21; 3, 81). İsfahandan Zaman bəyin başçılığı altında Xorasana hərbi yardım üçün göndərilmiş Qızılbaş ordusu dövlətdən üz döndərib İsfəndiyar xanla birləşmiş türkmən ellərinə ciddi zərbə vurdu. Nəticədə türkmən ellərinin ağsaqqalları Zaman bəyin yanına gəlib Qızılbaş dövlətinə bir daha xəyanət etməyəcəklərini və sədaqətli olacaqlarını bəyan edib bağışlanmalarını

xahiş etdilər. Bu zaman Əliyar xan Gəraylının Qızılbaş ordusu da Xarəzmə doğru hərəkət edən Əbülqaziyə çatdılar, onu məğlub edib ələ keçirdikləri külli miqdarda qənimət və əsirləri geri aldılar (1, 22-23).

A.N.Kononov yazır ki, "Xorasan qiyamı" nəticəsində İsfəndiyar xanın Səfəvi dövləti ilə münasibətləri pisləşdikdə xan qiyamın günahını qardaşı Əbülqazi xanın boynuna yıxıb onu girov kimi Səfəvi şahına göndərdi (4, 18). Məhəmməd Məsum bu hadisəni özbək xanlarının Səfəvilərə artıq boyun əyib itaət göstərmələri kimi dəyərləndirir. Onun yazdığına görə İsfəndiyar xan qardaşı Əbülqazi xanın məğlub olduğunu eşidən kimi şah sarayına qiymətli hədiyyələr, qardaşını, "Xorasan qiyamı" ilə bağlı üzrxahlığını ifadə edən məktub da göndərmişdi. Məktubda qeyd edilirdi: Necə ki, bizim babalarımız həmişə Sizin uca sarayınızın mühafizə və himayəsində olmuşdur, mən günahkarın da sizin Astanadan başqa sığınacağı yoxdur. Mənim qardaşım həddən artıq dikbaşlıq və nəzakətsizliklə ləyaqətsiz hərəkət etmişdir. Ona görə də onu həbs edib Sizin sərəncamınıza göndərdim ki, o, ədalətlə cəzalandırılsın ki, o, hərəkətlərinə görə buna layiqdir" (2, v. 23 a).

Bu hadisənin rəsmi təsvirinə baxmayaraq, əslində İsfəndiyar xan Əbülqazini həbs edib Şaha göndərməklə taxt-tac məsələsində öz rəqibindən azad olub Xarəzmdə təkbaşına hakimiyyətini təmin edir.

I Şah Səfi hadisələrin bu cür dönüşü ilə tam razı olduğuna görə Əbülqazi xanın səhv və nöqsanlarını bağışladı və onu cəzalandırmadı. Lakin xanı Səfəvi ölkəsində saxlayıb, İsfahana göndərdi. Şəhərdə ona ev verildi və yaşayışı üçün illik 10 min tümən pul təyin edildi (5, 134).

Şah dönük hakimlərə qarşı cəza dəstələri göndərilməsi haqqında sərəncam verdi. Xorasan əsilzadələrinə bildirildi ki, bir daha çıxış olduqda qiyam baş vermiş mahalda təhrikçilərə aman verilmədən hamısı edam edilsinlər (3, 82).

I Şah Səfinin on üç illik hakimiyyəti ərzində Bəlx və Buxara özbəkləri ardı-arası kəsilmədən qərbi Xorasana basqın edirdilər. İ.P.Pavlova yazır ki, Buxara basqınçıları ilə Xorasan əhalisi arasında ilk döyüş 1631-ci ildə baş vermişdi. Özbək xanı İmamqulu Badqisi tutmaq məqsədi ilə demək olar ki, Herata qədər gəlməyə müvəffəq olmuşdu. Şəhərdən səkkiz kilometr şərqdə yalnız Caharbağ məntəqəsində Herat hakimi Həsən xan İmamqulu xanın dəstəsini məğlub edir və 300 əsir ələ keçirir. Başqa döyüşlərdəki kimi bu döyüşdə də Həsən xan qələbəyə öz qüvvəsi ilə nail olmuşdu. Herat altındakı savaş haqqında Şah hökuməti heratlıların qələbəsindən sonra xəbər tutmuşdu. Həsən xan Şamlı 1618-ci ildən Herat bəylərbəyi və bütün Xorasanın baş əmiri idi. Məhz onun bacarığı sayəsində Xorasana özbək basqınlarının qarşısı alınırdı. O, 1641-ci ildə vəfat edir, vəzifəsi böyük oğlu Abbasqulu xana tapşırılır (3, 82).

Qazak və Kalmıkların birgə ordusu Daşkənd və Buxaraya 1633-cü ildə hücum edərkən özbək əsilzadələrinin bir çoxu bu zaman Səfəvi sarayında olan Vəliməhəmməd xanın oğlu Rüstəm Məhəmməd xanın tərəfinə keçmişdilər (3, 82).

1633-cü ildə Buxara xanlarından Yalanqtuş yüz minlik ordu ilə Xorasana hücum edib Aşrak-bağ qalasını mühasirəyə almış, ancaq mühasirə zamanı iki

yüz adam itirmiş və geri dönmüşdü (3, 82).

Özbəklərin bu ildə Sərəxs və Zarabad qalalarını tutmaq cəhdləri də uğursuzluqla qurtarmışdı (3, 82).

Xorasanda Bəlx hakimi Nadir Məhəmməd xanın oğlu Əbdüləziz xanın ordusu ilə Səfəvi qoşunu arasında ən azı beş dəfə böyük toqquşma olmuşdu. Bu zaman Buxara hakimi həştərxanilər sülaləsinin dördüncü nümayəndəsi İmamqulu xan (1611-1642) idi. O, xan hakimiyyətin möhkəmləndirməyə müvəffəq olmuş və yerli əyanları özünə tabe edə bilmişdi. Bəlxin idarəsi isə 1611-ci ildən Nadir Məhəmməd xanın əlində idi. Özbəklərin əsas hücum hədəfi Herat şəhəri idi. Artıq 1631-ci ilin sonunda Əbdüləziz Buxara və Bəlx əmirlərinin köməyi ilə Heratın 6-7 kilometrliyindəki Quryan qalasına yaxınlaşır. Bu dəfə Herat hakimi Həsən xanın vaxtında hərəkətə keçməsi ilə onların qarşısı alınmışdı və irəli gedə bilməmişdilər. Uğur qazana bilməyən Əbdüləziz xan öz dəstəsi ilə Cam tərəfdə hərəkət edir. Özbək ordusunun hərəkəti zamanı yerli əhaliyə çox böyük ziyan dəyir. Özbək xanlarının qarətləri elə bir həddə çatır ki, nəticədə yerli əhali onlara qarşı mübarizəyə qalxır (3, 83).

1632-ci ildə Əbdüləziz iyirmi minlik ordusu ilə Murğab çayının sağ sahilindəki Maruçak qalasını mühasirəyə alır. Elə bu ildə əvvəl adı çəkilən Rüstəm Məhəmməd xan ordu ilə cənub-qərbdən Bəlx xanlığına soxuldu, ancaq sonra Bəlx əmirlərindən ehtiyat edərək Maruçak qalasına sığındı. Əbdüləziz qalaya yaxınlaşıb onu ələ keçirməyə cəhd göstərdi. Artıq bu dəfə mövcud vəziyyətdən narahat olan Şah hökuməti şəhər hakiminə kömək etməyi qərara alır. Şahın sərəncamı əsasında bura sipahsalar Rüstəm bəy və Kəlbəli bəy göndərilməli idi. Sonuncuya muzdla qoşun səfərbərliyə alıb qalanı qorumaq üçün beş min tümən pul verilmişdi. Ancaq səfərbərlik yubandı və qala müdafiəçiləri mərkəzdən yardım almadan qələbə çaldılar (2, v. 69 a).

Xorasan sipahsaları Zaman xan Nisə və Dərunda nizam-intizam yaradıb sərhəd qalalarını möhkəmləndirib darüssəltənə-ye Herata gəldi. Burada Məşhəd hakimi Mənuçöhr xan, böyük əmirlər müzəffər əsgərlər son nəticədə cəm olmuş və Qur hakimi Həsən xan da bu tərəfdə idi ki, onu qarşıladılar. Hamısı bir-biri ilə birləşdilər. Maruçağa min xarvar taxıl ehtiyatı yerləşdirib 500 nəfər müdafiəçi təyin olundu. Bütün sərhəd qalalarında eyni dərəcədə möhkəm nizam-intizam yaradıb taxıl, sursat, tüfəngçi və digər qoruyucu yerləşdirildikdən sonra geri döndülər. Bu zaman Nəzər Məhəmməd xanın Uraz Quşbəyi adlı əsilzadəsi Meymənə hakimi həm də Maruçaq və Murğabda Qızılbaş ölkəsi sərhədində mühafizəçi idi. Burada baş vermiş döyüşdə onun qohumu olan iki nəfər özbək əsilzadəsi ələ keçirib Zaman bəyin yanına gətirdilər. Onlardan biri Zaman bəyin yanında saxlanıldı və digəri Şahın sarayına göndərildi. Nəzər Məhəmməd xan baş verənlərdən sonra Zaman bəyə dostluq məktubu göndərib peşmançılığını bildirərək qeyd etdi ki, bizim hökmdarla sizin şah arasında sülh və dostluq əlaqəsi mövcud olmuşdu (1, 27).

O cümlədən bildirdi ki, sərhəddə qətl və qarətlə məşğul olan özbəklər avara, alamançı və bəzi cahil və lütlərdi ki, onlar bir dəstədə birləşiblər. Nə-

ticədə biz onların qarşısını almağı qərara aldıq. Padşahımız tərəfindən təziyyə və yeni şahı təbrik üçün elçi göndəriləcəkdir. Zaman bəy də sərhəddə yaradılan sabitliklə bağlı onlara cavab məktubu göndərdi. Mərv hakimi Aşur xanın Caharcuda əsir götürülüb Buxaraya aparılmış iki nəfər mülazimini İmamqulu xan geri göndərdi. Bu zaman rumluların hücum xəbərini eşidən Zaman bəy Məşhəddən İraq və Azərbaycana getməyi qərara aldı. Ancaq mərkəzdən gələn tapşırığa görə o, bura bir dəstə tüfənçi göndərməli, özü isə Məşhəddə qışlamalı oldu.

Əbdüləziz 1633-cü ildə Cam və 1634-cü ildə isə Fərah hərbi əməliyyatlarında uğur qazanmır. 1634 - 1635-ci ildə Məşhəd altında Məşhəd və Herat hakiminin ordusu birlikdə Əbdüləzizin özbək qoşununu ağır məğlubiyyətə uğratdı. Bu döyüşdə düşmən tərəfdən 3 min döyüşçü öldürüldü və Əbdüləzizin bütün xəzinəsi ələ keçirildi. Əbdüləzizin ələ keçirilmiş sərvəti saraya gətirildi və Rüstəm Məhəmməd xana verildi. Bu hadisə onu Şaha daha da yaxınlaşdırdı (2, v. 75 a-b).

Xorasanın qərb mahallarının hakimləri təklikdə Əbdüləzizin basqınlarının qarşısını ala bilmirdilər və elə bu səbəbdən də özbəklər həmin məntəqələrə ciddi zərbə vururdular. Yalnız Məşhəd altında birləşmiş Xorasan ordusu ilə döyüşən Əbdüləzizin qoşunu çox böyük tələfata məruz qaldı və bu döyüşdən sonra bir müddət Xorasana hücum edə bilmədi (3, 84).

Ancaq 1632-ci ildə Mərv əmiri Aşur xanın vəfatı ilə əlaqədar yaranmış əlverişli vəziyyətdən Buxara əmirləri istifadə etdilər. Buxaranın tanınmış xanlarından Nadir Tuqay, Əbdürrəhim Bahadır və Nəzər Baruti Mərvi mühasirəyə aldılar. Bu zaman Şah Mərvin müdafiəsini Xələf bəyə tapşırdı. Xorasanda baş vermiş döyüşlərdə Şah hökuməti yalnız Mərv savaşına hərbi yardım göstərir. Mərvə İmamqulu xan, Ərdəlan hakimi Əmir xan, Lar hakiminin başçılığı altında qoşun göndərilir. O cümlədən Murtuzaqulu xan Mərvə hakim təyin edilir. O, bu vəzifəyə Mərv özbəklər tərəfindən mühasirəyə alındıqdan sonra təyin edilmişdi. Ona görə də, onun Mərvə daxil olması çox çətin idi. O, özünün 35 cəsur xidmətçisi ilə Mərv tərəfə yola düşür. O, şaha vəd etmişdi ki, Mərvə düşmən hiss etmədən daxil olacaq. Ancaq özbəklərin mühasirədə olan əsgəri heyətinin arxasındakı güclü hərbi hissələr Murtuzaqulu xanın dəstəsinin Mərvə daxil olmasına imkan vermədi. O, tezliklə düşmən tərəfin əlinə keçdi. Ancaq Mərv müdafiəçilərinin ciddi müqaviməti sayəsində özbəklər itki verib geri çəkildilər (3, 84-85).

Özbəklər 1641-ci ildə Mərv şəhərini ələ keçirmək üçün yeni cəhd etdilər. Yalanqtuşun başçılıq etdiyi özbək ordusu Mərvə yaxınlaşdı. Ona qarşı Xələf bəyin əsas ordusu ilə Herat hakimi Həsən xanın dəstəsi birləşdi. Şəhərdən bir neçə kilometr aralı Tacorduda düşmən məğlub oldu, 3 minə yaxın döyüşçü itirdi (3, 85).

I Şah Səfi Mərv qələbəsinə yüksək dəyər verdi. Demək olar ki, hərbi rəislərlə yanaşı, döyüşdə fərqlənən bütün hərbiçilər mükafatlandırıldı (3, 85).

Mənbələrdəki materialların təhlilindən aydın olur ki, I Şah Səfi dövründə bir tərəfdən Mərkəzi Asiyadan dövlət və adi qarətçilər tərəfindən Xorasana

basqınların ardı-arası kəsilmədən davam etmiş və digər tərəfdən isə Xarəzm, Buxara və Xivə xanları, sülalə üzvləri arasında ali hakimiyyət uğrunda mübarizədə həm qalib, həm də məğlub tərəf öz hakimiyyətlərini qoruyub saxlamaq üçün Səfəvi dövləti ilə diplomatik əlaqələrdə ondan hərbi yardım almağa cəhd göstərmiş, yaxud da onun hərbi-siyasi nüfuzundan istifadə etmişdir.

## ƏDƏBİYYAT


1. İsgəndər bəy Türkman Münşi və Məhəmməd Yusif Movərrex. Zeyl-i tarix-i alamara-yi Abbasi. Tehran: 1317, 320 s.
2. Məhəmməd Məsum ibn Xacəgi İsfahani. Xülasət üs-siyər. Münxen Dövlət kitabxnası; Saltıkov-Şedrin adına PDUK, Dornun kataloqu, 303 (mikrofilm).
3. Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммад-Масума Исфахани "Хуласат ас-сийар").
4. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: 2002, 146 s.
5. Веселовский Н.И. Очерк историка-географических сведений о Хивинском Ханстве. Спб. 1877, 220 с.


## ОБ ОТНОШЕНИЯХ МЕЖДУ СЕФЕВИДСКОЙ ИМПЕРИИ СО СТРАНАМИ ЦЕНТРАЛЬНОЙ АЗИИ В 1620-1640-Х ГОДАХ XVII ВЕКА


**А.А.ГАРИБОВА**



**РЕЗЮМЕ**

Анализ материалов источников показывает, что военные походы Сефевидов в направление Хорасан в период правления шаха Сефи I обычно прерывались Бухарскими ханами. Кроме того, центрально-азиатские государства – Хорезм, Бухара и Хивы попытались использовать военно-политическое влияние Сефевидского государства в решение внутренних политических проблем. Несмотря на это, в 1620-1640-х годах XVII века существенные изменения на границах между сефевидами и центрально-азиатскими ханствами не произошли.



**Ключевые слова:** Шах Аббас I, Шах Сафи, Абдул Азиз, Абулгази, Хан Султан


## ABOUT RELATIONS OF THE SAFAVIDS EMPIRE WITH CENTRAL ASIAN COUNTRIES IN THE 1620-1640S OF THE XVII CENTURY


**A.A.GARIBOVA**



**SUMMARY**

The analysis of the sources shows that during the reign of Shah Safi I military campaigns of the Safavids Khorasan were usually interrupted by Bukhara khans. In addition, the Central Asian states - Khorezm, Bukhara and Khiva tried to use military and political influence of the Safavid state in the solution of internal - political problems. Nevertheless, in the 1620-1640s of the XVII century no significant changes occurred at the boundaries between the Safavids and Central Asian khanates.



**Key words:** Shah Abbas I, Shah Safi, Abdul Aziz, Abulgazi, Khan, Sultan